# Bəşəri bəla, ekstremal vəziyyət və lider amili

***Dünya hazırda ilk yarısını başa vurmaqda olduğumuz 2020-ci ilə böyük ümidlər və arzularla qədəm qoymuşdu. Sonradan COVID-19 pandemiyasının bəşəriyyətə bu dərəcədə qənim kəsiləcəyini, hər şeyi alt-üst edəcəyini kimsə nəinki düşünmür, heç təsəvvür də etmirdi.***

***Koronavirus çox sürətlə dünyanı çənginə aldı və az vaxtda bütün ölkələrə yayıldı. İnfeksiyaya yoluxmalar və insan itkiləri ildırım sürətilə artdı. Həm də pandemiya özünün iqtisadi və maliyyə imkanları, ən müasir səhiyyə sistemi ilə nümunəvi hesab olunan dövlətlərə daha amansız "divan tutdu". Şübhəsiz, bu, ilk növbədə, həmin dövlətlərin rəhbərləri və əlaqədar qurumları tərəfindən koronavirusla mübarizəyə qeyri-ciddi yanaşmanın nəticəsi idi.***

***Azərbaycan Prezidenti cənab İlham Əliyev isə ilk günlərdən pandemiyaya qarşı mübarizənin təşkilində çevik və düzgün qərarlar qəbul etdi. Təsadüfi deyil ki, Azərbaycan liderinin bu təcrübəsi bütün dünyada maraq doğurdu. Hətta, Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizin təcrübəsini digər dövlətlərə dəfələrlə nümunə göstərdi. Ölkədə karantin rejiminin yumşaldılması ilə bağlı tədbirlər həyata keçirildi. Azərbaycan COVID-19-la mübarizədə dünyanın 29 ölkəsinə humanitar yardım göstərdi.***

***Lakin, çox təəssüf ki, dövlətimiz koronavirusla mübarizədə belə möhtəşəm uğurlar qazandığı bir vaxtda bəzilərinin məsuliyyətsizliyi üzündən vəziyyət xeyli pisləşdi. Xəstəliyə yoluxanların və insan itkilərinin sayı artdı. Odur ki, ölkə rəhbərinin təşəbbüsü ilə pandemiyaya qarşı mübarizə qaydaları yenidən sərtləşdirildi.***

***"Microsoft" şirkəti rəhbərliyinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə iyunun 16-da keçirilən videokonfransda dövlətimizin başçısı gələcək planlardan danışarkən bildirdi ki, əsas diqqəti insanların koronavirusdan qorunmasına yönəltdik və bunun bizim iqtisadi artımımıza çox mənfi təsir göstərəcəyini aydın şəkildə başa düşürük. Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın – təxminən, 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin, eyni zamanda, iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə, neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb. Bu səbəbdən, bu gün biz məhdudiyyət tədbirlərini uzlaşdırırıq, çünki COVID-19 hələ də mövcuddur.***

***Azərbaycan Prezidentinin bu mövqeyi, həmçinin indiyədək həyata keçirdiyi digər tədbirlər ölkə vətəndaşları tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılanır. Məktublara diqqət yetirək.***



## Azərbaycan nümunə göstərir

Hörmətli cənab Prezident!

Ulu öndərimiz Heydər Əliyev biz məcburi köçkünlərə hər zaman qayğı ilə yanaşardı. Allah ulu öndərimizə rəhmət eləsin, xatirəsi həmişə xalqın, o cümlədən bizim qəlbimizdə yaşayacaqdır. Siz Prezident seçilərkən sevindik ki, Azərbaycanımız gündəngünə çiçəklənəcək, gözəlləşəcəkdir. Sonrakı hadisələr bizim yanılmadığımızı göstərdi. Xalqımız bu gün güclü, qüdrətli Azərbaycanla fəxr edir.

Təbii ki, Sizin və Mehriban xanım Əliyevanın ölkəmiz üçün gördüyünüz işlər danılmazdır. Uğurlu addımlarınızla Sizə olan güvənimizi, inamımızı daha da gücləndirirsiniz. Digər ölkələrlə müqayisədə Azərbaycanımız sürətlə inkişaf edir, hər cür çətinliyə, o cümlədən, COVID-19 pandemiyasına qarşı mübarizədə nümunə göstərir.

Cənab Prezident, ailəmiz adından Sizə və ailənizə cansağlığı, uzun ömür diləyirəm. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz var. Yaşasın Azərbaycan!

Hörmətlə,

***Bəhruz İsa oğlu Mehrəliyev, Laçın rayonundan məcburi köçkün, Bakı şəhəri, Qaradağ rayonu***

## Bu da bir sınaq dövrüdür

Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Azərbaycan bütün gözlənilməz hallara hazır olduğu kimi, bu gözəgörünməz virusla, təhlükəli düşmənlə də uğurla mübarizə aparır. Pandemiyanın ən kəskin günlərində belə biz digər ölkələrlə müqayisədə daha yaxşı statistika ortaya qoya bildik. Azərbaycan beynəlxalq səviyyəli konfranslardan kənarda qalmadı.

Biz bu dövrdə ölkəmizin texniki imkanlarının da yaxşı vəziyyətdə olduğunu gördük. Azərbaycanın ev sahibliyi ilə, Sizin müdrik rəhbərliyiniz sayəsində nüfuzlu beynəlxalq videokonfranslar keçirildi. Daha sonra dövlət hakimiyyəti orqanları öz sahələri üzrə videokonfranslar yolu ilə fəaliyyətlərini qurdu. Yəni, görünən odur ki, ölkəmizdə heç bir sahədə işlər axsamadı. Eyni zamanda, bütün təhsil ocaqlarımız da distant şəkildə idarə olundu. Bu da bir sınaq, keçid dövrüdür. Düşünürəm ki, insanlarımız nikbin olmalıdır, Sizin uzaqgörənliyiniz sayəsində, milli birliyimizin köməyi ilə bu problemi də həll edəcəyik.

Allah Sizi qorusun, cənab Prezident! Biz həmişə Sizinləyik!

Hörmətlə,

***Rauf Müzəffər oğlu Abbasov, Gəncə şəhəri.***

## Xalqın taleyi Sizin üçün hər şeydən önəmlidir

Möhtərəm Prezidentimiz!

Dünyanı çənginə alan koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində atdığınız zəruri qabaqlayıcı addımlar bir daha onu sübut etdi ki, xalqın taleyi Sizin üçün hər şeydən önəmlidir. Ağcabədi sakinləri, eləcə də biz gənclər rayonumuzda "ASAN xidmət" mərkəzinin açılacağı günü səbirsizliklə gözləyirdik. Bir tərəfdən rayon əhalisi bir məkandan şəffaf qaydada bir çox dövlət və özəl xidmətlərdən yararlanacaq, digər tərəfdən isə gənclərimiz üçün əlavə şanslar yaranacaq. Hər zaman yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildiririk.

Hörmətlə,

***Hafiz Atakişiyev, Ağcabədi rayonu***

## Gücümüz birliyimizdədir

Cənab Prezident!

Yaşadığımız qədim Mirzəqışlaq kəndi Quba şəhərindən 20 kilometrlik məsafədə yerləşir. 1986-cı ildə kənd sakinləri qonaqpərvərlik göstərərək, axıska türklərindən olan 20 ailəni qəbul edib və hazırda onlarla mehriban yaşayırlar. Necə deyərlər, gücümüz birliyimizdədir.

Son illər kəndimizə göstərilən qayğı bizi sevindirir. Belə ki, iki il əvvəl kəndimiz təbii qazla təchiz olundu. Bu il isə kəndə 3,5 kilometr uzunluğunda asfalt yol çəkildi. Sosial problemlərimiz, demək olar ki, öz həllini tapıb. Azərbaycanın şəhərlərində, rayonlarında, kənd və qəsəbələrində ölkə vətəndaşlarına yaradılan bu gözəl şəraitə görə Sizə təşəkkür edir, Ulu Tanrıdan Sizə və ailə üzvlərinizə cansağlığı, uzun ömür arzulayırıq.

Hörmətlə,

***Alim Məmmədov, İbrahim Abasov, Rövşən Babayev, Ramin Kazımov, Ceyhun İsrafilov və başqaları Quba rayonu, Mirzəqışlaq kəndi.***

## Sizə borcluyuq

Möhtərəm Prezident!

Bir din xadimi kimi bildirmək istəyirəm ki, azad, firavan ölkədə yaşayıb, rahat şəkildə ibadətlə məşğul ola biliriksə, buna görə Sizə borcluyuq.

Bütün dünyanı bürüyən COVID-19 pandemiyası ölkəmizdən də yan keçmədi. Amma Sizin rəhbərliyinizlə görülən işlər sayəsində Azərbaycan digər ölkələrlə müqayisədə daha az itki verdi. Siz COVID-19 pandemiyası dövründə böyük fədakarlıq göstərərək, insanların maddi ehtiyaclarının ödənilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində uğurlu işlər görürsünüz.

Cənab Prezident, bir daha əmin olduq ki, ən çətin günlərdə güvənə biləcəyimiz rəhbərimiz var. Allah Sizi və xalqımızı qorusun!

Hörmətlə,

***Əli Cəmaləddin oğlu Eldarov, Siyəzən rayonu***

## Kənd ağsaqqalları Sizə minnətdarlıq edirlər

Möhtərəm cənab Prezident!

Kəndimizdə aqrar sektorda inkişaf dinamikası müşahidə edilir. Hazırda taxıl biçini mövsümüdür. Biçinə yeni kombaynlar cəlb edilmişdir. Həmçinin dövlət dəstəyi ilə özəl sektor tərəfindən lazımi texnikalar alınmaqdadır. Fermerlərin gübrəyə olan ehtiyacını təmin etmək məqsədilə müvafiq işlər görülmüşdür. Pambıq əkinini də uğurla başa çatdırmışıq.

Hörmətli Prezident, kənd ağsaqqalları Sizi əmin edirlər ki, taxıl biçinini uğurla başa vurub, bol məhsul əldə edəcəyik. Bu da kəndimizdə əhalinin güzəranının yaxşılaşdırılmasına zəmin yaradacaqdır. Bütün bu işlərin uğurla həyata keçirilməsi üçün kəndin ağsaqqalları Sizə minnətdarlıqlarını bildirirlər.

Kənd ağsaqqalları adından hörmətlə,

***Ağalı Osmanov, Salyan rayonu, Kürsəngi kəndi***

## İnanırıq ki, Qarabağımız tezliklə azad ediləcək

Hörmətli Prezident!

Dünyanı koronavirus pandemiyasının ağuşuna aldığı bir vaxtda, bütün çətinliklərə baxmayaraq, Tərtər rayonuna səfər etdiyinizə bizimlə birgə olduğunuza görə cəbhə bölgəsində yaşayan vətənpərvər gənclər adından Sizə minnətdarlığımızı bildiririk. Biz gənclər həmişə Sizinləyik və Sizin rəhbərliyinizlə istər təhsildə, istər istehsalat, istərsə idman sahəsində yeni-yeni uğurlara imza atmağa söz veririk. İnanırıq ki, Qarabağımız tezliklə işğaldan azad ediləcək, o torpaqlarımızda üçrəngli Azərbaycan bayrağı dalğalanacaq. Tanrı Sizi, ailənizi və xalqımızı qorusun! Amin!

Hörmətlə,

***Tunarə Məmmədzadə, Tərtər rayonu***

## Gördüyünüz bütün işlər alqışa layiqdir

Cənab Prezident!

"Azərbaycan" İstilik Elektrik Stansiyasında aparılan abadlıq-quruculuq işləri biz energetiklərin ürəyincədir. Stansiyanın təmiri ilə yanaşı, həmin ərazidən keçən Qarabağ kanalının da təmir edilməsi, onun "Borçalı" bağ massivində gedən hissəsində yeni körpünün salınması sakinlərin sevincinə səbəb olub. Uzun illər idi ki, həmin bağ massivində yaşayan sakinlərin gediş-gəlişində çətinlik var idi. Artıq yaşadığımız bağ massivinə rahatlıqla gedirik.

Cənab Prezident, gördüyünüz bütün işlər alqışa layiqdir. Qoy, Uca Tanrı Sizi qorusun!

Hörmətlə,

***Rafiq Ziyad oğlu Əliyev, Mingəçevir şəhəri***

## Dar günün dostusunuz

Çox hörmətli cənab Prezident!

Son illərdə ölkəmizdə baş verən hadisələr göstərdi ki, Siz hər bir vətəndaşın dayağı, dar günün dostusunuz. Bizim ailə də bunu öz həyatında gördü. Ötən il Dağlıq Şirvan zonasında baş vermiş zəlzələ nəticəsində evimiz qəzalı vəziyyətə düşmüşdü. O günləri Allah bir də bizə göstərməsin. Öz doğma viran olmuş şəkildə dağınıq görmək çox ağır taledir. Belə bir vaxtda biz Sizi yanımızda gördük, böyük təsəlli və sonda nicat tapdıq. Ailəm üçün yeni ev tikildi.

Möhtərəm Prezident, bizi evsiz-eşiksiz qoymadığınız üçün Sizə ailəmin adından minnətdarlığımı bildirirəm. Xudavəndi-aləm ocağınızı gur eləsin, həyatınız daim firavan olsun!

Hörmətlə,

***Elməddin Seyfəddin oğlu Seyidov, İsmayıllı rayonu, Hacıhətəmli kəndi***

## Milli-mənəvi dəyərlərimizin himayədarısınız

Möhtərəm Prezident!

Siyəzən ərazisində yerləşən nadir tarix və mədəniyyət abidələrinin qorunmasının daha da gücləndirilməsinə imkan verəcək "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət qoruğunun yaradılması haqqında sərəncamınız rayon ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı. Bu addımınız bir daha sübut edir ki, Siz Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin himayədarısınız.

Dünyada COVID-19 pandemiyası təhlükəsinin tüğyan etdiyi dövrdə ölkəmizdə bu bəlanın qarşısının alınması və insanların sağlamlığının qorunması üçün gördüyünüz tədbirlərə görə də Sizə təşəkkür edirəm.

Hörmətlə,

***Pərvin Əlizadə oğlu Ağasiyev, Azərbaycan Respublikası, Siyəzən rayonu***

## Hər zaman yanınızdayıq

Möhtərəm cənab Prezident!

Sizin və Mehriban xanım Əliyevanın bu çətin günlərdə xalqımızın yanında olmağınız, bizə maddi və mənəvi dəstək verməyiniz, eyni zamanda, bu bəladan qurtuluş üçün lazım olan bütün tədbirlərin həyata keçirilməsinə nəzarət etməyiniz xalqımızın həyatında əvəzsiz rol oynamaqdadır. Sizin böyük zəhmət hesabına əldə etdiyiniz uğurlar nəticəsində ölkəmiz az itkilərlə bu koronavirusla gərgin mübarizə aparır. Təsadüfi deyil ki, xalqımız bir daha Sizin müdrikliyinizin, Vətəninə, xalqına bağlı liderliyinizin şahidi oldu.

Hörmətli cənab Prezidentimiz, Sizinlə fəxr edirik, Sizin kimi böyük lideri olan ölkəmizin bundan sonra da hər bir mübarizədə qalib olacağına inanırıq. Bütün gücümüzlə Sizi dəstəkləyirik və hər zaman yanınızdayıq.

Hörmətlə,

***Sevinc Nüsrət qızı Seyidova, Kürdəmir şəhəri***

***Təqdim etdi: Qüdrət PİRİYEV, "Xalq qəzeti"***